AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

Magistr pilləsində tədris olunan

# "MOLLA NƏSRƏDDİN" ƏDƏBİ MƏKTƏBİ

*fənninin*

# PROQRAMI

Bakı-2017

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

**Magistr pilləsində tədris olunan**

# "MOLLA NƏSRƏDDİN" ƏDƏBİ MƏKTƏBİ

***fənninin***

# PROQRAMI

**(Ali filoloji təhsilin magistr pilləsi üçün)**

**İxtisas: 060201- Ədəbiyyatşünaslıq (Ədəbiyyat nəzəriyyəsi)**

**Bakı-2017**

Proqram Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında hazırlanmışdır.

Tərtib edən: f.e.n., dos. Hüseynova Jalə Firidun qızı

Redaktor: f.e.d., prof. Hüseynov Tofiq Hüseyn o.

Rəyçi: f.e.n., dos. Əliyeva Lalə Sabir qızı

Proqram Bakı Dövlət Universiteti Filologiya fakültəsi
Elmi Şurasının 15 may 2017-ci il tarixli
06 saylı iclas protokolu ilə təsdiq edilmişdir.

**Molla Nəsrəddin ədəbi məktəbi**
**Magistratura, I kurs**
**Mühazirə 15 saat**

**Ədəbi məktəblər**

Ədəbi məktəblər haqqında ümumi məlumat. Azərbaycan ədəbiyyatında ədəbi məktəblərin yaranmasının ədəbi-tarixi zəruriliyi. Ədəbi məktəblər bədii ədəbiyyatın inkişaf forması kimi. Ədəbi məktəb – dahi sənətkarların sənət davamçılarının ideya-bədii birliyi kimi. Ədəbi məktəblərin özünəməxsusluğu, bədii ədəbiyyatın inkişafında rolu. Ədəbi ənənənin ədəbi məktəblərdə təzahürü və inkişafı. Məzmun və forma novatorluğu. Ədəbi varisliyin prinsipləri. Realizm ədəbi məktəbi. Realizmin ideya-estetik və fəlsəfi əsası. Realizmdə xəlqilik, millilik və sənətkarın ideya axtarışları məsələsi. Həyat həqiqəti və bədii həqiqət. Realizmdə tarixilik və müasirlik. Azərbaycan ədəbiyyatında realizmin və tənqidi realizmin özünəməxsusluğu.

**Molla Nəsrəddin ədəbi məktəbi**

"Molla Nəsrəddin"i yaradan tarixi şərait. Jurnalın proqramı və yaradıcı heyəti. Satirik gülüşə olan zəruri ehtiyac. "Molla Nəsrəddin" jurnalı və onun mətbuata olan təsiri. Mollanəsrəddinçilərin fəaliyyəti və mənəvi qələbəsi. Ədəbiyyatı xalqa yaxınlaşdırmaq mollanəsrəddinçilərin başlıca qayəsi kimi. Realist ədəbiyyat uğrunda mübarizə. Sənət və ədəbiyyat qarşısında qoyulan tələblər. Ədəbiyyatm xəlqiliyi və müasirliyi uğrunda mübarizə. "Molla Nəsrəddin" jurnalında bədii nəsr, publisistika, satirik şeir. Azərbaycan dilinin varlığı və şəffaflığı uğrunda XX əsrin əvvəllərində mətbuat və ədəbiyyatda gedən kəskin mübarizə. Jurnalın geniş yayılması səbəbləri. Azərbaycan ədəbiyyatşünaslarının "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər haqqında mülahizələri.

**Cəlil Məmmədquluzadə**

Ədibin həyatı ("Xatiratım" əsasında). C.Məmmədquluzadə M.F.Axundov ənənələrinin davamçısı kimi. Mirzə Cəlilin nəsri bədii nəsrin yeni nümunəsi kimi. Ədibin mövzu dairəsi. Kənd və kəndli məsələsi. Bəy və xan obrazları. Mirzə Cəlil bədii nəsrində qadın hüquqsuzluğunun tənqidi. Ziyalı obrazları. Ana dili probleminin bədii həlli. C.Məmmədquluzadənin bədii portret ustalığı. Satirik gülüş yaratmaq yolları. Tendensiyalılıq, müasirlik. "Danabaş kəndinin əhvalatları" povesti müəllifin ilk nəsr əsəri kimi. Əsərdə ictimai bərabərsizliyin və Azərbaycan kəndinin sosial mənzərəsinin təsviri.

Mirzə Cəlil böyük satirik dramaturq kimi. Satirik gülüşü və müsbət idealı.

"Ölülər" əsəri C.Məmmədquluzadənin dramaturgiya sahəsindəki axtarışlarının zirvəsi kimi. Əsərdəki gülüşün tragikomik xarakteri. Kefli İsgəndər obrazına ədəbiyyatşünaslığın münasibəti. Ədəbi tənqiddə əsərə verilən qiymət.

"Anamın kitabı" əsərində milli birlik ideyası. Azərbaycançılıq ideologiyasının təcəssümü. Vətən, xalq və ana dili problemi.

"Dəli yığıncağı" əsərində ifşaçılıq, həyat həqiqəti, dramaturji konfliktlərin həyatiliyi.

C.Məmmədquluzadənin publisistikası. "Molla Nəsrəddin" jurnalında çap olunan felyetonların problematikası, mövzu və məzmun dairəsi.

Yazıçının dramaturgiyası, bədii nəsri və publisistikası arasında mövzu və ideya vəhdəti.

**Mirzə Ələkbər Sabir**

Həyatı və mühiti. Yaradıcılığının əsas mərhələləri. Həqiqi "Molla Nəsrəddin" şairi kimi. Poeziyasında "Molla Nəsrəddin" mərhələsi. Jurnalda çap olunan ilk şeiri barədə ədəbiyyatşünaslığın mülahisələri. Sabir və klassik Azərbaycan poeziyası. Sabirin novatorluğu. Yaradıcılığının birinci mərhələsində ictimai



satiraya meyl.

Mövzu dairəsinin genişliyi. Sabirin yaradıcılığında cəmiyyətin ən müxtəlif ictimai təbəqələrini satirik portretləri.

Sabirin yaradıcılığında zamanın siyasi hadisələrinə artan diqqət.

"Hophopnamə" müəllifi XX əsrin ən böyük vətəndaş şairi kimi.

Məktəb, maarif, elm və təhsil məsələləri şairin yaradıcılığının tərkib hissəsi kimi.

Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Satiralarında ənənə və novatorluq, poetik irsinin müasirliyi. Sabir ədəbi məktəbinin nümayəndələri.

Sabir və folklor. Sabirin taziyanələri.

Sabir və mətbuat.

Sabir irsinin tədqiqi. Sabirşünaslıq və onun müasir səviyyəsi.

**Məmməd Səid Ordubadi**

Həyatı və mühiti. "Molla Nəsrəddin" jurnalında iştirakı. Satirik ruhlu şeirləri. İctimai geriliyin, qadın hüquqsuzluğunun, çarizmin mənfur siyasətinin tənqidi. Elmə, təhsilə münasibəti. Felyetonları. İlk şeir kitablarında maarifçi dünyagörüşünün bədii əksi. Nadanlığın mənəvi geriliyin tənqidi, maariflənmə uğrunda mübarizə. Bədii nəsri və dramaturgiyası.

Məmməd Səid Ordubadi irsinin tədqiqi.

**Əli Nəzmi**

Həyatı, mühiti, ilk əsərləri.

Əli Nəzmi mollanəsrəddinçi kimi. Sənətkarın üslubunun formalaşmasında "Molla Nəsrəddin" jurnalının rolu. Şeirlərində satirik tənqidin güclənməsi.

Qadınların təhsili, maariflənməsi istiqamətində Əli Nəzmi satiralarının rolu.

Yaradıcılığında qadın hüquqsuzluğunun tənqidi.

Yalançı din xadimlərinin ifşası.

Fəhlə və kəndli mövzusunda yazdığı şeirlər.

Əli Nəzminin ana dilinin təmizliyi uğrunda mübarizəsi.

Əli Nəzminin felyetonları.

Əli Nəzmi ədəbi irsinin öyrənilməsi və nəşri.

**Əliqulu Qəmküsar**

Həyatı, mühiti, yaradıcılığı. Mirzə Cəlil və Əliqulu Qəmküsar. Satirik şeirləri, əsas mövzuları, tənqid hədəfləri. Ə.Qəmküsarın felyetonları.

Ə.Qəmküsar yaradıcılığını Sabir ədəbi məktəbinə bağlayan cəhətlər.

**Mirzə Əli Möcüz Şəbüstəri**

Həyatı və mühiti. Satira və yumorunun qaynaqları. Şairin mövzuları, tənqid hədəfləri. Möcüzün sənətkarlığı, dil və üslubu.

Möcüz Sabir ədəbi məktəbinin Cənubi Azərbaycanda ən layiqli davamçısı kimi.

Müharibə, istibdad əleyhinə yazdığı şeirlər.

Möcüzün tənqidində açıq tendensiyalılıq.

**Bayraməli Abbaszadə**

Həyatı. Bayraməli Abbaszadə və mollanəsrəddinçilər. Şairin əsərlərində Cənubi Azərbaycan mövzusu. Sabir və Əli Nəzmiyə yazdığı nəzirələr.

**Əli Razi**

Əli Razi və mollanəsrəddinçilər. Qadın azadlığı mövzusunda yazdığı şeirlər.

İctimai-siyasi mövzuda yazılmış şeirləri. Felyetonları. Əli Razi və Əli Nəzmi.



**Əbdürrəhimbəy Haqverdiyev**

Ə.Haqverdiyev mollanəsrəddinçi kimi. Ədibin realizmi haqqında. "Xortdanın cəhənnəm məktubları" povestində bədii sənətkarlıq. "Marallarım" hekayələr silsiləsində tiplər.

Yaradıcılığının əsas mərhələləri. Birinci mərhələyə daxil olan əsərləri. Yaradıcılığının birinci mərhələsində Ə.Haqverdiyev maarifçi-realist sənətkar kimi. İlk hekayələri.

İlk dram əsəri. "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərində ailə-məişət məsələləri. M.F.Axundov, N.Vəzirov yaradıcılığı ilə yaxınlığı.

Ə.Haqverdiyev yaradıcılığında faciə əsas ədəbi janr kimi. "Dağılan tifaq" Azərbaycan ədəbiyyatında faciə janrının ilk nümunələrindən biri kimi. Əsərdə mülkədar həyatının təsviri.

"Bəxtsiz cavan" əsərində mülkədar həyatının təsviri. Mülkədar-kəndli münasibətlərinə maarifçi baxış. Dramaturgiyamızda ziyalı obrazları. Əsərdə dramatik münaqişə.

"Ağa Məhəmməd şah Qacar" tarixi faciə kimi. Əsərin süjet xəttini təşkil edən tarixi hadisələr. Ağa Məhəmməd şah Qacar mürəkkəb və ziddiyyətli tarixi şəxsiyyətin bədii obrazı kimi.

Yaradıcılığının ikinci dövrü. Ə.Haqverdiyevin satirik-yumoristik nəsr ustası kimi. Satirik hekayələri tənqidi realizmin nümunəsi kimi.

Ə.Haqverdiyevin novatorluğu.

Ə.Haqverdiyev irsinin tədqiqi məsələsi.

## Ədəbiyyat


1. Ağayev İslam Əliqulu, Qəmküsar. Bakı, Elm, 1976.
2. Ağayev İslam "Molla Nəsrəddin" in poetikası. Bakı, Elm, 1985.
3. Axundov N. "Molla Nəsrəddin" jurnalının nəşr tarixi. Bakı, 1959.
4. Bayramoğlu Alxan. Mirzə Ələkbər Sabir. Bakı, Qismət, 2003.
5. Bayramoğlu Alxan. Bənzərəm bir qocaman dağa ki... Bakı, Elm, 2010.
6. Əlimirzəyev Xalid. Problemlər və xarakterlər dramaturgiyası. Bakı, Yazıçı, 1979.
7. Əlimirzəyev Xalid. Klassiklərimizin ideal və poetik sənət dünyası. Bakı, Elm və təhsil, 2009.
8. Əlimirzəyev Xalid. Dahi sənətkar, böyük vətəndaş. Bakı, Elm və təhsil, 2010.
9. Hacıyev Tofiq. "Molla Nəsrəddin" in dili və üslubu. Bakı, Yazıçı, 1983.
10. Həbibbəyli İsa. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan, Əcəmi, 2009.
10. Hüseynov Firidun. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər. Bakı, Yazıçı, 1986.
11. Hüseynov Firidun. Əli Nəzmi. Bakı, Gənclik, 1970.
12. Hüseynov Firidun. Adi əhvalatlarda böyük həqiqətlər. Bakı, Gənclik, 1977.
13. Hüseynov Firidun. Satirik gülüşün qüdrəti. Bakı, Yazıçı, 1982.
14. Həbibbəyli İsa. XX əsr Azərbaycan yazıçıları. Bakı, Nurlan, 2004
15. Həbibbəyli İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007.
16. Xəlilov Fərman. Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz. Bakı, Elm və təhsil, 2010





17. Xəlilov Nizami. Xalq təfəkkürü, sənətkar qüdrəti. Bakı, 1996
18. İsrafilov Hüseyn. Azərbaycan dramaturgiyasının inkişafı problemləri. Bakı, Elm, 1988
19. Qasımov Himalay, Nəcəf Nəcəfov. XX əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri. Bakı, Adiloğlu, 2007
20. Qarayev Yaşar. Faciə və qəhrəman. Bakı, Elm, 1965.
21. Qarayev Yaşar. Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980.
22. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı, Sabah, 1996.
23. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı. XIX-XX yüzilliklər. Bakı, Elm, 2002
24. Mirəhmədov Əziz. Azərbaycan "Molla Nəsrəddin"i. Bakı, Yazıçı, 1980.
25. Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, Maarif, 1983.
26. Məmmədov Məmməd. Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı, Azərbaycan EA, 1963.
27. Məmmədov Məmməd. Sabir: mübahisələr, həqiqətlər. Bakı, Yazıçı, 1990.
28. Məmmədov Məmməd. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı, Nurlan, 2008.
29. Məmmədov Kamran. Əbdürrəhim bəy Haqverdiyev. Bakı, 1971.
30. Məmmədov Kamran. XX əsr Azərbaycan gülüşü. Bakı, Yazıçı, 1988.
31. Məmmədov Xeyrulla. "Əkinçi" dən "Molla Nəsrəddin"ə qədər. Bakı, Yazıçı, 1987.
32. Mütəllimov Təhsin. Əbdürrəhim bəy Haqverdiyevin poetikası. Bakı, Yazıçı, 1988.
33. Novruzov Tərlan. Sabir ədəbi məktəbi. Bakı, Yazıçı, 1992.
34. Cəlil Məmmədquluzadə ensiklopediyası. Bakı, Şərq-Qərb, 2008.

35. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı, 2004.
36. Cəfər Xəndan. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı, 1962.
37. Zamanov A. Sabir və müasirləri. Bakı, 1963.
38. Zamanov A. Əməl dostları. Bakı, 1979.